| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 25.01.2008 |
| QEYDİYYAT NÖMRƏSİ | 14 |
| ADI | Ezamiyyə xərclərinin normaları haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-01-2008, Nəşr nömrəsi: 01, Maddə nömrəsi: 44) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 01.03.2008 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 010.000.000<br>100.000.000<br>070.000.000<br>090.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**Ezamiyyə xərclərinin normaları haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Dövlət büdcəsi xərclərinin proqnozlaşdırılmasında istifadə olunan ezamiyyə xərclərinin normalarını təkmilləşdirmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasının ərazisində ezamiyyə xərclərinin 1 günlük norması Bakı şəhərində 90,0 manat, Gəncə, Sumqayıt və Naxçıvan şəhərlərində 70,0 manat, respublika tabeli digər şəhərlərdə, rayon mərkəzlərində, şəhər tipli qəsəbələrdə və kəndlərdə 65,0 manat müəyyən edilsin.[1]

Azərbaycan Respublikasının ərazisində ezamiyyə xərclərinin müəyyən edilmiş 1 günlük normasının 80 faizini mehmanxana xərcləri təşkil edir.[2]

~~1-1. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının ərazisində ezamiyyə zamanı mehmanxana xərcləri barədə müvafiq təsdiqedici sənədlər təqdim edilmədiyi hallarda, ezamiyyə xərclərinin 1 günlük normasının mehmanxana xərcləri üçün müəyyən edilmiş hissəsinin 50 faizi ödənilir.~~[3]

*1-2. Mühafizə olunan şəxslərin ölkədaxili səfərləri zamanı təhlükəsizliyi təmin edən Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti əməkdaşlarının mehmanxana xərcləri təqdim edilmiş təsdiqedici sənədlərə əsasən faktiki xərclərə uyğun olaraq ödənilir.*[4]

2. “Xarici ölkələrə ezamiyyə xərclərinin 1 günlük normaları” təsdiq edilsin (1 nömrəli əlavə).

3. “Rəhbər işçilərin xarici ölkələrə ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası” təsdiq edilsin (2 nömrəli əlavə).[5]

4. Müəyyən edilsin ki, ezamiyyə xərclərinin 1 günlük normasına gündəlik, mehmanxana, rabitə, şəhərdaxili nəqliyyat (taksidən istifadə istisna olmaqla) və digər xidmətlər ilə bağlı xərclər daxildir.

5. Nəqliyyat xərcləri (ezam olunma yerinə getmək və qayıtmaq, ölkə-daxili xərclər) təqdim edilən sənədlər əsasında ödənilir.

6. Daimi iş vaxtı yolda keçən və gediş-gəliş xarakteri daşıyan, növbə (vaxta) metodu ilə işləyən və çöl şəraitində çalışan (gündəlik iş vaxtı başa çatdıqdan sonra öz daimi yaşayış yerinə qayıtmaq imkanı olmayan) müəssisə, idarə və təşkilatların işçilərinə ezamiyyə xərcləri əvəzinə hər gün üçün 15,0 manat əlavə vəsait verilir.[6]

7. Müəyyən edilsin ki:

büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda ezamiyyə xərcləri onlara bu məqsəd üçün büdcədə nəzərdə tutulan vəsaitlər dairəsində, digər təşkilatlarda isə onların öz vəsaitləri hesabına ödənilir;

büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlar istisna olmaqla digər təşkilatlar ezamiyyə xərclərinin ödənilməsi üçün öz sərəncamlarında qalan mənfəət hesabına bu qərarla müəyyən edilmiş normalardan əlavə vəsait ayıra bilərlər;

büdcədən maliyyələşdirilən dövlət orqanlarında işin xüsusiyyətləri ilə əlaqədar olaraq, Azərbaycan Respublikasının ərazisi daxilində xidməti minik avtomobilləri ilə xidməti ezamiyyətə gedilməsi zəruri olan hallarda avtomobil nəqliyyatı vasitələri üçün müəyyən edilmiş aylıq yürüş həddindən artıq yol qət edildiyi təqdirdə, sərf edilən yanacağın dəyəri təsdiqedici sənədlər əsasında ezamiyyə xərcləri üçün nəzərdə tutulmuş vəsaitlər hesabına nəqliyyat xərci kimi ödənilir.

*7-1. Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, digər dövlət orqanlarının rəhbərlərinə tapşırılsın ki, ezamiyyələrin həyata keçirilməsini dövlət büdcəsi xərclərinin səmərəliliyinin artırılması və maliyyə vəsaitinin qənaətlə istifadə edilməsinin vacibliyi nəzərə alınmaqla təmin etsinlər.*[7]

8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, 1 ay müddətində “İşçilərin ezamiyyə qaydaları”nı hazırlayıb müvafiq qaydada təsdiq etsinlər.

9. “Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş bəzi qərarlarının Siyahısı” təsdiq edilsin (əlavə olunur).

10. Bu qərar 2008-ci il martın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri 25 yanvar 2008-ci il
14

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2008-ci il 25 yanvar tarixli 14 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**1 nömrəli Əlavə**

**Xarici ölkələrə ezamiyyə xərclərinin 1 günlük normaları**

| Sıra - si | Ölkənin adı | Valyutaların adı | Ezamiyyə xərclərinin 1 günlük norması |
|---|---|---|---|
| 1. | 2. | 3. | 4. |
| 1. | Rusiya Federasiyası | ABŞ dolları | 150 |
| | Moskva və Sankt-Peterburq şəhərləri | | 240 |
| 2. | Tacikistan | ABŞ dolları | 140 |
| | Düşənbə şəhəri | | 160 |
| 3. | Özbəkistan | ABŞ dolları | 100 |
| | Daşkənd şəhəri | | 160 |
| 4. | Belarus | ABŞ dolları | 140 |
| | Minsk şəhəri | | 180 |
| 5. | Ukrayna | ABŞ dolları | 160 |
| | Kiyev şəhəri | | 210 |
| 6. | Moldova | ABŞ dolları | 110 |
| | Kişineu şəhəri | | 150 |
| 7. | Qazaxıstan | ABŞ dolları | 130 |
| | Almatı və Astana şəhərləri | | 200 |
| 8. | Qırğızıstan | ABŞ dolları | 130 |
| | Bişkek şəhəri | | 160 |
| 9. | Gürcüstan | ABŞ dolları | 140 |
| | Tbilisi şəhəri | | 155 |
| 10. | Türkmənistan | ABŞ dolları | 95 |
| | Aşqabad şəhəri | | 130 |
| 11. | Latviya | avro | 105 |
| | Riqa şəhəri | | 140 |
| 12. | Litva | avro | 120 |
| | Vilnüs şəhəri | | 145 |
| 13. | Estoniya | avro | 95 |
| | Tallin şəhəri | | 140 |
| 14. | Böyük Britaniya | İngiltərə funt sterlinqi | 170 |
| | London şəhəri | | 190 |
| 15. | Lixtenşteyn | avro | 200 |
| 16. | Avstriya | avro | 185 |
| 17. | Almaniya | avro | 225 |
| 18. | Belçika | avro | 215 |
| 19. | İrlandiya | avro | 215 |
| 20. | Monako | avro | 195 |
| 21. | Norveç | avro | 225 |
| 22. | Niderland | avro | 225 |
| 23. | San-Marino | avro | 215 |
| 24. | Fransa | avro | 205 |
| | Paris şəhəri | | 250 |
| 25. | Türkiyə | avro | 150 |
| | Ankara və İstanbul şəhərləri | | 165 |
| 26. | İtaliya | avro | 185 |
| 27. | Xorvatiya | avro | 185 |
| 28. | Bosniya və Herseqovina | avro | 160 |
| 29. | Danimarka | avro | 180 |
| 30. | İsveçrə | avro | 210 |
| 31. | Lüksemburq | avro | 190 |
| 32. | Makedoniya | avro | 190 |
| 33. | Kipr | avro | 160 |
| 34. | Macarıstan | avro | 160 |
| 35. | Malta | avro | 160 |
| 36. | Portuqaliya | avro | 170 |
| 37. | Slovakiya | avro | 160 |
| 38. | Finlandiya | avro | 210 |
| 39. | Çexiya | avro | 190 |
| 40. | Serbiya | avro | 155 |
| 41.[8] | *Monteneqro* | avro | 155 |
| 42. | Andorra | avro | 200 |
| 43. | Albaniya | avro | 160 |

| | | | |
|---|---|---|---|
| 44. | Yunanıstan | avro | 180 |
| 45. | İslandiya | avro | 190 |
| 46. | İspaniya | avro | 200 |
| 47. | Polşa | avro | 175 |
| 48. | İsveç | avro | 225 |
| 49. | Bolqarıstan | avro | 135 |
| 50. | Rumıniya | avro | 175 |
| 51. | Sloveniya | avro | 145 |
| 52. | ABŞ | ABŞ dolları | 330 |
| | Nyu-York şəhəri | | 350 |
| 53. | Argentina | ABŞ dolları | 195 |
| 54. | Braziliya | ABŞ dolları | 225 |
| 55. | Kanada | ABŞ dolları | 190 |
| 56. | Meksika | ABŞ dolları | 165 |
| 57. | Amerika qitəsi üzrə digər ölkələr | ABŞ dolları | 165 |
| 58. | Bəhreyn | ABŞ dolları | 165 |
| 59. | Səudiyyə Ərəbistanı | ABŞ dolları | 165 |
| 60. | Birləşmiş Ərəb Əmirlikləri | ABŞ dolları | 235 |
| 61. | İordaniya | ABŞ dolları | 140 |
| 62. | İran | ABŞ dolları | 160 |
| 63. | Qətər | ABŞ dolları | 180 |
| 64. | Küveyt | ABŞ dolları | 180 |
| 65. | Oman | ABŞ dolları | 170 |
| 66. | Suriya | ABŞ dolları | 160 |
| 67. | İraq | ABŞ dolları | 160 |
| 68. | İsrail | ABŞ dolları | 170 |
| *68-1.*[9] | *Fələstin* | *ABŞ dolları* | *170* |
| 69. | Livan | ABŞ dolları | 170 |
| 70. | Liviya | ABŞ dolları | 170 |
| 71. | Bruney | ABŞ dolları | 155 |
| 72. | Yəmən | ABŞ dolları | 185 |
| 73. | Əlcəzair | ABŞ dolları | 165 |
| 74. | Mərakeş | ABŞ dolları | 180 |
| 75. | Misir | ABŞ dolları | 180 |
| 76. | Tunis | ABŞ dolları | 180 |
| 77. | Seneqal | ABŞ dolları | 185 |
| 78. | Sudan | ABŞ dolları | 165 |
| 79. | Cibuti | ABŞ dolları | 155 |
| 80. | Çad | ABŞ dolları | 225 |
| 81. | Cənubi Afrika Respublikası | ABŞ dolları | 240 |
| 82. | Afrika qitəsi üzrə digər ölkələr | ABŞ dolları | 155 |
| 83. | Çin Xalq Respublikası | ABŞ dolları | 185 |
| 84. | Sinqapur | ABŞ dolları | 235 |
| 85. | Tailand | ABŞ dolları | 205 |
| 86. | Malayziya | ABŞ dolları | 205 |
| 87. | Şri-Lanka | ABŞ dolları | 155 |
| 88. | Hindistan | ABŞ dolları | 155 |
| 89. | Nepal | ABŞ dolları | 155 |
| 90. | Banqladeş | ABŞ dolları | 155 |
| 91. | Pakistan | ABŞ dolları | 165 |
| 92. [10] | *Butan* | ABŞ dolları | 145 |
| *92-1*[11] | *Myanma* | *ABŞ dolları* | *155* |
| 93. | Monqolustan | ABŞ dolları | 145 |
| 94. | Laos | ABŞ dolları | 155 |
| 95. | Vyetnam | ABŞ dolları | 155 |
| 96. | İndoneziya | ABŞ dolları | 205 |
| 97. | Əfqanıstan | ABŞ dolları | 175 |
| 98. | Kamboca | ABŞ dolları | 175 |
| 99. | Mavritaniya | ABŞ dolları | 175 |
| 100. | Mali | ABŞ dolları | 195 |
| 101. | Maldiv adaları | ABŞ dolları | 165 |

| | | | |
|---|---|---|---|
| 102. | Hibraltar | avro | 150 |
| 103. | Koreya Xalq Demokratik Respublikası (KXDR) | ABŞ dolları | 225 |
| 104. | Koreya Respublikası | ABŞ dolları | 245 |
| 105. | Yaponiya | Yapon iyeni | 34720 |
| 106. | Filippin | ABŞ dolları | 210 |
| 107. | Yeni Zelandiya | ABŞ dolları | 195 |
| 108. | Avstraliya və Okeaniya | ABŞ dolları | 195 |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2008-ci il 25 yanvar tarixli 14 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**2 nömrəli Əlavə**

**Rəhbər işçilərin xarici ölkələrə ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası**[12]

| **Sıra -si** | **Rəhbər işçinin vəzifəsi** | **Əlavə** (faizlə) |
|---|---|---|
| **1** | **2** | **3** |
| 1. | Azərbaycan Respublikasının Baş naziri, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, *Azərbaycan Respublikası Ali Məhkəməsinin* sədrləri[13] | 100 |
| 2. | Azərbaycan Respublikası Baş nazirinin müavinləri, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, *Azərbaycan Respublikasının Ali Məhkəməsi* sədrinin müavinləri; Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, *Azərbaycan Respublikası Ali Məhkəməsinin,* Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparat rəhbərləri; ~~Azərbaycan Respublikası Ali Məhkəməsinin,~~ Azərbaycan Respublikası Hesablama Palatasının, Məhkəmə-Hüquq Şurasının, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının, Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının sədrləri, *Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti*, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (ombudsman), Azərbaycan Respublikasının Baş prokuroru, Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin sədrləri, Azərbaycan Respublikası Milli Məclisinin deputatları, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının və *Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutulan orqanların* rəhbərləri, *Azərbaycan Respublikası Hesablama Palatasının sədrinin müavinləri, Azərbaycan Respublikası Hesablama Palatasının auditorları*, Bakı Şəhər İcra Hakimiyyəti başçısı[14] | 50 |
| 3. | Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, *Azərbaycan Respublikası Ali Məhkəməsinin* hakimləri; ~~Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinin müavinləri,~~ Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin sədr müavinləri, Məhkəmə-Hüquq Şurasının üzvləri, ~~Azərbaycan Respublikası Hesablama Palatasının sədr müavinləri, Azərbaycan Respublikası Hesablama Palatasının auditorları~~; Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin müavinləri, Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutulan orqanların *rəhbərlərinin* müavinləri, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının, Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının sədr müavinləri, *Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidentləri*, Azərbaycan Respublikası Baş prokurorunun müavinləri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında olan icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri, Azərbaycan Respublikasının yüksək səviyyəli nümayəndə heyətlərinin xarici ölkələrə rəsmi səfərləri ilə bağlı protokol tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar ezam olunan şəxslər[15] | 30 |

**Qeydlər:**

1. Cədvəlin 1-ci və 2-ci hissələrində göstərilən şəxslərə xidməti ezamiyyətlər zamanı ezamiyyə xərclərinin 1 günlük normasının 10 faizi məbləğində hər gün üçün nümayəndəlik xərcləri ödənilir. Həmin şəxslərə və diplomatik fəaliyyəti dövründə Fövqəladə və Səlahiyyətli Səfir *diplomatik rütbəsi və ya vəzifəsi* olanlara, eləcə də Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılmış hökumətlərarası komissiyaların tərkibinə daxil olan şəxslərə nəqliyyat xərcləri təyyarə üçün “biznes klass”, dəmiryol qatarları üçün “biznes klass” və ya “2 yerli kupeli yumşaq vaqon” tarifləri ilə ödənilir, bütün digər hallarda nəqliyyat xərcləri təyyarə üçün “ekonom klass”, dəmiryol qatarları üçün “4 yerli kupeli vaqon” tarifləri ilə ödənilir.[16]

2. Azərbaycan Respublikasının yüksək səviyyəli nümayəndə heyətlərinin rəhbərləri beynəlxalq tədbirlərdə və ikitərəfli görüşlərdə iştirak etmək üçün xarici ölkələrə ezam olunduqda, qəbul edən tərəfin protokol qaydalarına uyğun olaraq mehmanxanada yerləşdirildikdə, ezamiyyə xərcləri təqdim olunmuş sənədlərə əsasən faktiki mehmanxana xərclərinin 1 günlük məbləği ezamiyyə xərclərinin 1 günlük normasının cədvəldəki əlavələr nəzərə alınmaqla, 60 faizindən çox olduğu hallarda, həmin fərq mehmanxana günləri üçün ezamiyyə xərclərinə əlavə xərc olaraq ödənilir. Bu qayda ilə mehmanxanada yerləşdirilən həmin rəsmi nümayəndə heyətinin digər üzvlərinin ezamiyyə xərcləri təqdim olunmuş sənədlər əsasında müvafiq ölkələr üzrə müəyyən edilmiş ezamiyyə xərclərinin 1 günlük normasından 1,5 dəfədən çox olmamaq şərtilə ödənilir.

3. Cədvəldə göstərilən rəhbər işçilər onlar üçün müəyyən edilmiş əlavələrdən yalnız birini almaq hüququna malikdirlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2008-ci il 25 yanvar tarixli 14 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş bəzi qərarlarının**

**S İ Y A H I S I**

1. “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 16 mart tarixli 66 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 3, maddə 220, 7 maddə 514; 2002-ci il, 7, maddə 453; 2003-cü il, 9, maddə 532; 2004-cü il, 12, maddə 1068; 2005-ci il, 6, maddə 547, 10, maddə 986; 2006-cı il, 4, maddə 383) 7-ci bəndi istisna olmaqla.

2. “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 16 mart tarixli 66 nömrəli qərarına əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 26 iyul tarixli 127 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 7, maddə 514).

3. “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 16 mart tarixli 66 nömrəli qərarı ilə təsdiq edilmiş “Rəhbər işçilərin ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərcləri normalarına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası”na əlavə edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 20 iyul tarixli 115 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 7, maddə 453).

4. “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 16 mart tarixli 66 nömrəli qərarı ilə təsdiq edilmiş “Rəhbər işçilərin ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərcləri normalarına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası”na əlavə edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 26 sentyabr tarixli 125 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 9, maddə 532).

5. “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 16 mart tarixli 66 nömrəli qərarına əlavələr və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 3 dekabr tarixli 187 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 12, maddə 1068).

6. “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 16 mart tarixli 66 nömrəli qərarına əlavə edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 21 iyun tarixli 111 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 6, maddə 547).

7. “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 16 mart tarixli 66 nömrəli qərarına dəyişiklik və əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 21 oktyabr tarixli 193 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 10, maddə 986).

8. “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 16 mart tarixli 66 nömrəli qərarına dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 24 aprel tarixli 115 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 4, maddə 383).

-
-
-

QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

1. 13 iyun 2008-ci il tarixli 137 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 589**)
2. 24 dekabr 2008-ci il tarixli 280 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 12, maddə 1118)**
3. 25 yanvar 2011-ci il tarixli **15** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 1, maddə 66**)
4. 20 sentyabr 2011-ci il tarixli **144** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 9, maddə 854**)
5. 26 fevral 2013-cü il tarixli **28** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 02, maddə 197**)
6. 14 oktyabr 2013-cü il tarixli **304** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 10, maddə 1222)**
7. 13 avqust 2015-ci il tarixli **276** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 8, maddə 962**)
8. 7 mart 2018-ci il tarixli **81** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti 11 mart 2018-ci il, 55, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 592)**
9. 20 iyun 2018-ci il tarixli **269** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 22 iyun 2018-ci il, 136 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1368)**
10. 30 aprel 2019-cu il tarixli **195** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 1 may 2019-cu il, 94 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 786)**
11. 27 yanvar 2021-ci il tarixli **13** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 30 yanvar 2021-ci il, 21 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 1, maddə 96)**
12. 20 noyabr 2021-ci il tarixli **363** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 25 noyabr 2021-ci il, 255 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 11, maddə 1286)**
13. 1 mart 2022-ci il tarixli **65** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 4 mart 2022-ci il, 49 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 3, maddə 252)**

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

---

[1] 20 iyun 2018-ci il tarixli **269** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 22 iyun 2018-ci il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1368)** ilə 1-ci hissədə "**65,0**" rəqəmləri "**90,0**" rəqəmləri ilə, "**50,0**" rəqəmləri "**70,0**" rəqəmləri ilə və "**45,0**" rəqəmləri "**65,0**" rəqəmləri ilə əvəz edilmişdir.

[2] 20 sentyabr 2011-ci il tarixli **144** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə 1-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1. Azərbaycan Respublikasının ərazisində ezamiyyə xərclərinin 1 günlük norması Bakı şəhərində 35,0 manat, Gəncə, Sumqayıt və Naxçıvan şəhərlərində 25,0 manat, respublika tabeli digər şəhərlərdə 20,0 manat, rayon mərkəzlərində, şəhər tipli qəsəbələrdə və kəndlərdə 15,0 manat müəyyən edilsin.~~

[3] 20 sentyabr 2011-ci il tarixli **144** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 9, maddə 854**) ilə yeni məzmunda 1-1-ci hissə əlavə edilmişdir.

27 yanvar 2021-ci il tarixli **13** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 30 yanvar 2021-ci il, 21 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 1, maddə 96)** ilə 1-1-ci hissə ləğv edilmişdir.

[4] 20 noyabr 2021-ci il tarixli **363** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 25 noyabr 2021-ci il, 255 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 11, maddə 1286)** ilə yeni məzmunda 1-2-ci hissə əlavə edilmişdir.

[5] 26 fevral 2013-cü il tarixli **28** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 02, maddə 197**) ilə 3-cü hissədə "**Rəhbər işçilərin**" sözlərindən sonra "**xarici ölkələrə**" sözləri əlavə edilmişdir.

[6] 20 sentyabr 2011-ci il tarixli **144** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 9, maddə 854**) ilə 6-cı hissədə "**5,0**" rəqəmi "**10,0**" rəqəmi ilə əvəz edilmişdir.

20 iyun 2018-ci il tarixli **269** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 22 iyun 2018-ci il, 136 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1368)** ilə 6-cı hissədə "**10,0**" rəqəmləri "**15,0**" rəqəmləri ilə əvəz edilmişdir.

[7] 27 yanvar 2021-ci il tarixli **13** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 30 yanvar 2021-ci il, 21 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 1, maddə 96)** ilə yeni redaksiyada 7-1-ci hissə əlavə edilmişdir.

[8] 13 avqust 2015-ci il tarixli **276** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 8, maddə 962**) ilə 1 nömrəli əlavə - "Xarici ölkələrə ezamiyyə xərclərinin 1 günlük normaları"nın 41-ci hissəsində "**Çernoqoriya**" sözü "**Monteneqro**" sözü ilə əvəz edilmişdir.

[9] 13 avqust 2015-ci il tarixli **276** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 8, maddə 962**) ilə 1 nömrəli əlavə - "Xarici ölkələrə ezamiyyə xərclərinin 1 günlük normaları"nın yeni məzmunda 68-1-ci hissə əlavə edilmişdir.

[10] 13 avqust 2015-ci il tarixli 276 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 8, maddə 962**) ilə 1 nömrəli əlavə - "Xarici ölkələrə ezamiyyə xərclərinin 1 günlük normaları"nın 41-ci hissəsində 92-ci hissədə "**Samoa**" sözü "**Butan**" sözü ilə əvəz edilmişdir.

[11] 13 avqust 2015-ci il tarixli 276 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 8, maddə 962**) ilə 1 nömrəli əlavə - "Xarici ölkələrə ezamiyyə xərclərinin 1 günlük normaları"nın yeni məzmunda 92-1-ci hissə əlavə edilmişdir.

[12] 26 fevral 2013-cü il tarixli 28 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 02, maddə 197**) 2 nömrəli əlavə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**Rəhbər işçilərin ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası**~~

| ~~Sıra –si~~ | ~~Rəhbər işçinin vəzifəsi~~ | ~~Əlavə (faizlə)~~ |
|---|---|---|
| ~~1~~ | ~~2~~ | ~~3~~ |
| ~~1.~~ | ~~Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri; Azərbaycan Respublikası Baş nazirinin müavinləri; Azərbaycan Respublikasının Baş Prokuroru; Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman); Azərbaycan Respublikası Hesablama Palatasının sədri, Hesablama Palatası sədr müavini, auditorları; Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının sədri; Azərbaycan Respublikası Milli Məclisinin deputatları; Azərbaycan Respublikası Milli Məclis Aparatının rəhbəri, Azərbaycan Respublikası Hesablama Palatası Aparatının rəhbəri; Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri; mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri, Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurasının sədri~~ ~~[12]~~ | - - - - - ~~50~~ - - - - |
| ~~2.~~ | ~~Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədr müavini və hakimləri; Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini; Azərbaycan Respublikası Baş Prokurorunun müavinləri; Azərbaycan Respublikası Hesablama Palatasının sədr müavini və auditorları; Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədr müavini; Azərbaycan Respublikası Apellyasiya məhkəmələrinin sədrləri və sədr müavinləri; Məhkəmə-Hüquq Şurasının üzvləri; ağır cinayətlər məhkəmələrinin sədrləri və sədr müavinləri; mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin müavinləri, Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası sədrinin müavini~~ ~~[12]~~ | - - ~~30~~ - - - - - - - - - |
| ~~3.~~ | ~~Azərbaycan Respublikasının dövlət və hökumət səviyyəsində rəsmi nümayəndə heyətlərinin xarici ölkələrə rəsmi səfərləri ilə bağlı protokol tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar ezam olunan şəxslər~~ | - - ~~25~~ |

~~**Qeyd.**~~

~~Cədvəlin 1-ci bəndində göstərilən şəxslərə xidməti ezamiyyətlər zamanı ezamiyyə xərclərinin 1 günlük normasının 10 faizi məbləğində hər gün üçün nümayəndəlik xərcləri ödənilir. Həmin şəxslərə və diplomatik fəaliyyəti dövründə Fövqəladə və Səlahiyyətli Səfir dərəcəsi olanlara, eləcə də Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılmış hökumətlərarası komissiyaların tərkibinə daxil olan şəxslərə nəqliyyat xərcləri təyyarə üçün "biznes klass", dəmiryol qatarları üçün "biznes klass" və ya "2 yerli kupeli yumşaq vaqon" tarifləri ilə ödənilir, bütün digər hallarda nəqliyyat xərcləri təyyarə üçün "ekonom klass", dəmiryol qatarları üçün "4 yerli kupeli vaqon" tarifləri ilə ödənilir.~~ ~~[12]~~

~~Azərbaycan Respublikasının dövlət və hökumət səviyyəsində rəsmi nümayəndə heyətinin rəhbərləri beynəlxalq tədbirlərdə və ikitərəfli görüşlərdə iştirak etmək üçün xarici ölkələrə ezam olunduqda, qəbul edən tərəfin protokol qaydalarına uyğun olaraq mehmanxanada yerləşdirildikdə, ezamiyyə xərcləri təqdim olunmuş sənədlərə əsasən faktiki mehmanxana xərclərinin 1 günlük məbləği ezamiyyə xərclərinin 1 günlük normasının cədvəldəki əlavələr nəzərə alınmaqla 60 faizindən çox olduğu hallarda, həmin fərq mehmanxana günləri üçün ezamiyyə xərclərinə əlavə xərc olaraq ödənilir. Bu qayda ilə mehmanxanada yerləşdirilən həmin rəsmi nümayəndə heyətinin digər üzvlərinin ezamiyyə xərcləri təqdim olunmuş sənədlər əsasında müvafiq ölkələr üzrə müəyyən edilmiş ezamiyyə xərclərinin 1 günlük normasından 1,5 dəfədən çox olmamaq şərti ilə ödənilir.~~

~~Dövlət və hökumət nümayəndə heyətinə Azərbaycan Respublikasının Hökuməti adından çıxış etmək səlahiyyəti və ya tapşırığı verilmiş nümayəndə heyətləri aid edilir.~~

~~Cədvəldə göstərilən rəhbər işçilər onlar üçün müəyyən edilmiş əlavələrdən yalnız birini almaq hüququna malikdirlər.~~

[13] 7 mart 2018-ci il tarixli 81 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti 11 mart 2018-ci il, 55, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 592**) ilə 2 nömrəli əlavə – "Rəhbər işçilərin xarici ölkələrə ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası"nın cədvəlində 1-ci hissəyə "**Məhkəməsinin**" sözündən sonra "**, Azərbaycan Respublikası Ali Məhkəməsinin**" sözləri əlavə edilmişdir.

[14] 14 oktyabr 2013-cü il tarixli 304 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 10, maddə 1222**) ilə cədvəlin 2-ci hissəsinə "**Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri**" sözlərindən sonra "**, Azərbaycan Respublikası Hesablama Palatasının sədrinin müavinləri, Azərbaycan Respublikası Hesablama Palatasının auditorları**" sözləri əlavə edilmişdir.

7 mart 2018-ci il tarixli 81 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti 11 mart 2018-ci il, 55, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 592**) ilə 2 nömrəli əlavə – "Rəhbər işçilərin xarici ölkələrə ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası"nın cədvəlində 2-ci hissədən "**Azərbaycan Respublikası Ali Məhkəməsinin,**" sözləri çıxarılmışdır və həmin hissəyə "**Konstitusiya Məhkəməsi**" sözlərindən sonra "**, Azərbaycan**

**Respublikasının Ali Məhkəməsi**” sözləri, “**Konstitusiya Məhkəməsinin,**” sözlərindən sonra isə “**Azərbaycan Respublikası Ali Məhkəməsinin,**” sözləri əlavə edilmişdir.

30 aprel 2019-cu il tarixli **195** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 1 may 2019-cu il, 94, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 786**) ilə “Rəhbər işçilərin xarici ölkələrə ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası”nın cədvəlinin 2-ci hissəsinə “**Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının sədrləri**” sözlərindən sonra “**, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti**” sözləri və 3-cü hissəsinə “**Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının sədr müavinləri**” sözlərindən sonra “**, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidentləri**” sözləri əlavə edilmişdir.

1 mart 2022-ci il tarixli **65** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 4 mart 2022-ci il, 49, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 3, maddə 252**) ilə “Rəhbər işçilərin xarici ölkələrə ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası”nda cədvəlin 2-ci hissəsinə “**Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının**” sözlərindən sonra “**və Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutulan orqanların**” sözləri əlavə edilmişdir.

[15] 14 oktyabr 2013-cü il tarixli **304** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 10, maddə 1222**) ilə cədvəlin 3-cü hissəsindən “**Azərbaycan Respublikası Hesablama Palatasının sədr müavinləri, Azərbaycan Respublikası Hesablama Palatasının auditorları**” sözləri çıxarılmışdır.

7 mart 2018-ci il tarixli **81** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti 11 mart 2018-ci il, 55, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 592**) ilə 2 nömrəli əlavə – “Rəhbər işçilərin xarici ölkələrə ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası”nın cədvəlində 3-cü hissədən “**Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinin müavinləri,**” sözləri çıxarılmışdır və həmin hissəyə “**Konstitusiya Məhkəməsinin**” sözlərindən sonra “**, Azərbaycan Respublikası Ali Məhkəməsinin**” sözləri əlavə edilmişdir.

1 mart 2022-ci il tarixli **65** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 4 mart 2022-ci il, 49, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 3, maddə 252**) ilə “Rəhbər işçilərin xarici ölkələrə ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası”nda cədvəlin 3-cü hissəsində birinci halda “**rəhbərləri və**” sözləri “**rəhbərlərinin**” sözü ilə əvəz edilmişdir.

[16] 14 oktyabr 2013-cü il tarixli **304** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 10, maddə 1222**) ilə “Qeydlər”in 1-ci hissəsində “**dərəcəsi**” sözü “**diplomatik rütbəsi və ya vəzifəsi**” sözləri ilə əvəz edilmişdir.